# Milli Kitabxana "Nəriman Nərimanov" biblioqrafiyasını nəşr etdirib

Milli Kitabxana "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Nəriman Nərimanov" biblioqrafiyasının nəşrini həyata keçirib. Biblioqrafiya görkəmli yazıçısı, publisist və ictimai-siyasi xadimin ötən il qeyd olunan 150 illiyinə həsr edilib.

Qeyd edək ki, N.Nərimanov haqqında ilk biblioqrafiya ədibin anadan olmasının 100 illiyi münasibətilə 1972-ci ildə görkəmli biblioqraf, filologiya elmləri namizədi Fərman Bayramovun tərtibçiliyi ilə ("Nəriman Nərimanov (1870-1970): Biblioqrafik göstərici") çap olunmuşdu. Ədibin ədəbi və ictimai-siyasi fəaliyyətinin əhəmiyyətini nəzərə alaraq, haqqında aparılan tədqiqat işlərinin pərakəndəliyini aradan qaldırmaq, fundamental informasiya resursu yaratmaq məqsədilə M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası tərəfindən yeni biblioqrafiya tərtib edilib.

Kitabın əvvəlində "Nəriman Nərimanovun həyat və fəaliyyətinin əsas tarixləri", "Nəriman Nərimanovun hikmətli sözləri və mülahizələri", "Görkəmli şəxsiyyətlər Nəriman Nərimanov haqqında" bölmələri verilib. Biblioqrafiyada görkəmli yazıçının kitabları, dövri mətbuatda, məcmuələrdə çap olunmuş əsərləri, imzaladığı əmr, sərəncam və dekretlər, elmi və publisistik məqalələri öz əksini tapıb. Həyat və yaradıcılığı haqqında kitablar ayrıca bölmə şəklində təqdim edilib, dövri-mətbuatda çapdan çıxan materiallar müvafiq bölmələr üzrə qruplaşdırılaraq təqdim olunub. Biblioqrafik göstəricinin "Əlavələr" bölməsinə "Arxiv materialları"; "N.Nərimanovun tədqiqatçıları" və "N.Nərimanov mövzusunda əsərləri olan rəssamlar" altbölmələri daxil edilib. 1890-2020-ci illəri əhatə edən biblioqrafiyada zəngin material toplanıb. İlk dəfə olaraq "Nəriman Nərimanov dünya kitabxanalarında" və "Nəriman Nərimanov dünya universitet kitabxanalarında" bölmələri də verilib,




N.Nərimanovun Bakı şəhərindəki Xatirə Muzeyinin materiallarından da istifadə edilib.

Azərbaycan, rus və başqa dillərdə çap olunmuş materialları ehtiva edən biblioqrafik göstərici ilə tanış olmaq istəyənlər http://anl.az/down/N.Nerimanov.pdf linkindən istifadə edə bilərlər.